**https://doi.org/10.58225/tim.2025-3-64-71**

**M.A.Məmmədov**
***i.e.d., professor, Azərbaycan Memarlıq və İnşaat Universiteti***
***ORCID 0000-0002-5327-2507***
***m.m.asirli@mail.ru***
**Z.A.Qurbanov**
***SOCAR, vitse-prezident***

*Məqalə redaksiyaya daxil olub 17.09.2025*
*The article was received by editorial board on 17.09.2025*
*Статья принята к печати 17.09.2025*

# AZƏRBAYCANIN İQTISDİ REGİONLRINDA QAZ TƏSƏRRÜFATI iNFRASTRUKTURUNUN TƏHLiLİ VƏ iNKIŞAF iSTiQAMƏTLƏRI

**Xülasə**

*Azərbaycan iqtisadi regionlrında o cümlədən Qarabağ və Şərqi Zəngəzur regionlarının işğaldan azad edilmiş ərazilərin qaz təchizatı infrastrukturunun formalaşdırılması, yenidənqurulması, yeni xətlərin çəkilməsi və təmiri, qaz təsərrüfatının inkişaf mərhələləri, qaz sayğaclarının quraşdırılma vəziyyəyi tədqiq edilmişdir. Eyni zamanda milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə kommunal xidmətlər- elektrik enerjisi və qaz təsərrüfatının Strateji Yol Xəritəsində nəzərdə tutulan prioritetləri üzrə və regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarında , Böyük Qaydışa dair I Dövlət Proqramında tədqiq olunan sahə üzrə tədbirlər ətraflı araşdırılmışdır. Yəni, enerji təchizatının infrastrukturunun yenidənqurulması,modernləşdirilməsi, yeni qazpaylama lahiyələrinin həyata keçirilməsi, qaz itkilərinin azaldılması, qaz sayğaclarının və istehlakçıların qaz təminatı istiqamətində "Azəriqaz" İB tərəfindən aparılan tədbirlərin icra vəziyyəti təhlil edilmiş və nəticələri dəyərləndirilmişdir.[5][7]*

***Açar sözlər:*** *iqtisadi regionlr, infrastruktur, qaz, istehlakçılar, qeyri-neft sektoru, strateji hədəf.*

## GİRİŞ

Ölkənin iqtisadiyyatının bütün sahələrinin davamlı və dayanaqlı inkişafını və eyni zamanda Qarabağ və Şərqi Zəngəzur iqtisadi regionun iqtisadiyyatının inkişafını və bu regionların iqtisadiyyatının ölkənin ümumi iqtisadiyyatına səmərəli inteqrasiyasını təmin etmək məqsədi ilə hazırlanmış "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də və "Azərbaycan Respublikasının 2022-2026-cı ildə sosial-iqtisadi inkişaf strategiyası"nda nəzərdə tutulmuş prioritet istiqamətlərə müvafiq hazırlanmış "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilmə vəziyyətinin tədqiqi göstərir ki, infrastrukturların bərpası , yenidənqurulması və inkişafının icra müddətinə müvafiq həyata keçirilməsi təmin edilir. Bu proqramlarda nəzərdə tutulan tədbirlərə müvafiq olaraq azad edilmiş ərazilərdə bərpa quruculuq işlərinin hədəf göstəriciləri müəyyən edilmiş, onların icrası əhalinin öz yurdlarına geri qayıtması, bu zaman ehtimal edilən risklərin idarə edilməsi, onların həyata keçirilməsinin maliyyələşmə mənbələri müəyyənləşdirilmişdir. Qeyd olunan tədbirlərin təşkili və idarə edilməsi məqsədi ilə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonların iqtisadiyyatının ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyasını, bu ərazilərdə dövlət-özəl tərəfdaşlığına əsaslanan iqtisadi artımın stimullaşdırılması, dayanıqlı inkişafın təmini hədəflərinə nail olunması sahəsində beynəlxalq təcrübələr nəzərə almaqla yaradılmış institusional bazanın Azərbaycan modeli müstəsna əhəmiyyətə malikdir. Bu ərazilər ilə əlaqədar tədbitlərin mərkəzləşdirilmiş qaydada həll etmək

məqsədi ilə yaradılmış Əlaqələndirmə Qərargahı “Böyük Qaydışa dair I Dövlət Proqramı”nın səmərəli təmin edilməsi istiqamətində zəruri əlaqələndirmə tədbirləri həyata keçirir.[11] Eyni zamanda iqtisadiyyatın sahələri üzrə hazırlanılan dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin hədəf göstəriciləri müəyyən edilmiş və bu hədəflərə nail olmaq üçün infrastruktur sahəsində ərazilərin minadan təmizlənməsi, təhlükəsizliyin təmini, ərazilərə şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisi, nəqliyyat-yol, rabitə, su-qaz, elektrik, istilik və s. prioritetləri nəzərdən keçirilmişdir.

Dayanıqlı inkişafı təmin etmək təhsil, səhiyyə və sosial xüsusiyyətlərin qabaqcıl standartlara uyğun yaradılması məşğulluq imkanlarının artırılması sahəsində proqramda nəzərdə tutulan işlər icra müddətinə müvafiq yerinə yetirilməsi istiqamətində əhəmiyyətli işlər aparılır.

**TƏHLİL**

Böyük Qayıdışa dair I Dövlət Proqramının fəaliyyət istiqamətlərinə müvafiq ölkənin iqisadi rayonları üzrə 2021-ci ilə qədər həyata keçirilən tədbirlərin müqayisəli təhlili edilmiş və müəyyən olunmuşdur ki, proqramda nəzərdə tutulan tədbirlər ilə yanaşı qaz təchizatı sahəsində əlavə tədbirlərin həyata keçirilməsi təmin olunmuşdur. Belə ki:

- proqrama daxil olmayan Abşeron rayonunda – 174,24 km yeni qaz xətti çəkilmişdir və 18,76 km qaz xətti əsaslı təmir olunmuşdur, 2 yeni yaşayış massivi qazlaşdırılmışdır;
- proqrama daxil olmayan Xızı rayonunda – 19,8 km yeni qaz xətti çəkilmişdir və 8,9 km qaz xətti əsaslı təmir olunmuşdur, 2 yeni yaşayış massivi qazlaşdırılmışdır;
- proqrama daxil olmayan Balakən rayonunda – 4,95 km qaz xətti əsaslı təmir olunmuşdur;
- proqrama daxil olmayan Tərtər rayonunda – 12,51 km qaz xətti əsaslı təmir olunmuşdur;
- proqrama daxil olmayan Füzuli rayonunda – 5,12 km qaz xətti əsaslı təmir olunmuşdur;
- proqrama daxil olmayan Ağdam rayonunda – 3,02 km yeni qaz xətti çəkilmişdir və 1,55 km qaz xətti əsaslı təmir olunmuşdur.

Azərbaycanın iqtisadi rayonlrı üzrə qaz təchizatı sahəsində 2021-ci ilə qədər həyata keçirilən tədbirlər təhlil edilmiş və ağağıdakı diaqram tərtib olunmuşdur:

Ölkənin iqtisadi rayonlar üzrə 1 yanvar 2021-ci ilə qədər həyata keçirilən tədbirlərin müqayisəli təhlili aparılmış və aşağıdakı diaqram tərtib edilmişdir.




Azərbaycan Respublikasının iqtisadi rayonları üzrə 2021-ci ilin əvvəlinə qədər olan dövürdə qaz xətlərinin çəklişinin cədvəl 1-dəki göstəricilərin təhlili göstərir ki, ən çox A+ran iqtisadi rayonunda 790 ,01 km. və yaxud ölkə üzrə ümumidən 25,5 faiz yeni qaz xətti çəkilmiş, sonra isə müvafiq olaraq Gəncə-Qazax iqtisadi rayonunda 663,0 km. və yaxud 21,5 faiz ,Bakı şəhərində isə bu xəttin uzunluğu 602.23 km. və yaxud 19,5faiz olmuş,ən aşağı göstərici isə məlum

səbəblərdən,yəni işğal olunmuş Yuxarı Qarabağ iqtisadi rayonunda 3,03 km. -0,01 faiz təşkil etmişdir.Hal – hazırda işğaldan azad edilmiş Yuxarı Qarabağ – Kəlbəcər Laçın iqtisadi rayonlarda qaz təchizatının bərpası və enerji təminatının infrastrukturunun bərpası və yeniləşdirilməsi sahəsində təşkilatı – iqtisadi mexanizmin yaradılmasına və həyata keçirilməsinə ölkə prezidenti İlham Əliyevin daimi xüsusi diqqət verir , beləki bu tədbirləin həyata keçirilməsini təmin etmək məqsədi ilə bir neçə sərancam və fərman imzalamışdır.

Ölkənin iqtisadi rayonlarında qaz təchizatı sahəsində 2021-ci ilin əvvəlinə əsaslı təmirinin aparılmasının təhlili göstərir ki, Aran iqtisadi rayonunda yeni qaz xətti çəklişi ilə yanaşı təmir tşləridə bu regionda aparılmışdır. Belə ki, təmir işləri bu regionda 205,26 km. və ümumi təmir işinin 23,7 faizini təşkil etmişdir. Bu dövürdə yeni qaz xəttinin çəklişində olduğu kimi Gəncə-Qazax iqtisadi rayonunda və Bakı şəhərində digər regonlara nisbətən yüksək olmuş və müvafiq olaraq 250,05 km., yaxud ümumidən 20,3 faiz və 194,23 km. , yaxud 15,7 faiz olmuşdur. Ümumiyyətlə bu dövür ərzində ölkə ərazisində yeni çəkilmiş qaz xətlərinin uzunluğu 3097,0 km., əsaslı təmir aparılan xətlərin uzunluğu isə 1237,68 km. təşkil etmiş , ümumiyyətlə hər iki sahədə aparıla işlər üzrə ümumi xəttin uzuluğu 4334,68 km. olmuş və bunun 71,4 faizi yeni 28,6 faizi təmir xətlərindən ibarətdir.

Struktur təhlili göstərir ki, ölkənin iqtisadi rayonlarının dayanaqlı qaz təhcizatı ilə təmin etmək istiqamətinə əsasən yeni xətlər çəkilmiş, belə ki bu dövrdə ümumi çəkilən xətdə yeni xətt çəklişi 97,0 faiz əsaslı təmir isə 3,0 faiz təşkil etmişdir.




**Diaqram. Regionlarda 2021-ci ilin əvvəli qaz xətlərinin çəkilməsi strukturu**

Ölkənin iqtisadi rayonları üzrə 1 yanvar 2021 –ci ilə qədər yeni qaz xətti şəklişinin təhlili gpstərir ki, bu dövürdə qaz xətti çəklişinin ən yüksək gösəricisi Bakı şəhəri uzrə 25,5 faiz , sonra Lənkaran - 19,5 faiz, Quba-Xaçmaz -15,9 faiz iqtisadi rayonlarda, ən aşağı göstərici isə Şəki – Zakatala iqtisadi rayonlarında müşahidə olunmuşdur. Növbəti illərdə qeyd olunan iqtisadi rayonları dayanaqlı və fasiləsiz qazla təmin etmək məqsədi ilə dövlət proqramında nəzərdə tutulan tədbirlərin icra müddətinə müvaiq mərhələlərlə ardıcıl həyata keçirilməsi nəzərdə tutulmuşdur.




Proqrama müvafiq ölkənin iqtisadi rayonları üzrə qaz xətlərinin əsasli təmiri strukturunun təhlili göstərir ki, yeni xətt çəklişində olduğu kimi əsaslı təmir işləri ən çox Bakı səhəri ərazisində - 23,7 faiz, növbəti Lənkaran iqtisadi rayonu və Gəncə - Qazax iqtisadi rayonlarında müvafiq olaraq 15,7 faiz və 20,3 faiz olmuşdur, ən az isə məlum səbəblərdən Yuxarı –Qarabağ iqtisadi royonunda -1,5 faiz təşkil etmişdir.

Yeni qaz xətti çəklişinin yuxarıda göstərilən strukturunun araşdırılması göstərir ki, Abşeron rayonunda 88,4 faiz, Xızı rayonunda 10,1 faiz, digərlərində isə cəmi 1,5 faiz yeni qaz xətti çəkilmişdir [5] [9].

İqtisadi rayonlar üzrə qaz sayğaclarının quraşdırılma vəziyyətinin təhlili göstərir ki, 2020-ci ildə 562440 sayğac quraşdırılmış, ondan 214771 ədəd və yaxud 38.2%-i Bakı şəhəri, 62346 ədəd və yaxud 11.1 % Abşeron iqtisadi rayonu, 72607 ədəd və yaxud 12.9%-i Gəncə-Qazax, 25951 ədəd və yaxud 4.6% Şəki-Zaqatala, 32852 ədəd və yaxud 5.8% Lənkəran İqtisadi rayonu, 33586 ədəd və yaxud 60% Quba-Xaçmaz, 95523 ədəd və yaxud 17.0 % Aran iqtisadi rayonu, 7833 ədəd və yaxud 1.4 % Yuxarı Qarabağ iqtisadi rayonu və 16971 ədəd və yaxud 3.0 % Dağlıq Şirvan iqtisadi rayonunda quraşdırılmışdır.

Qeyd etmək lazımdır ki, 2021-ci ilin əvvəlinə quraşdırılan sayğacların 2020-ci ilin əvvəli ilə müqayisədə 315474 ədəd və yaxud 56.1 % çox olmuşdur, bu göstərici əvvəlki il ilə müqayisədə Bakı şəhərində 120183 ədəd və yaxud 38.3% artıq olmuşdur. Bu artım digər iqtisadi rayonlardada müşahidə olunur.Beləliklə, aparılan təhlil göstərir ki, "Azəriqaz" İB tərəfindən qaz sayğaclarının quraşdırılması, kommunal xidmətlərin tərkib hissəsi olan səmərəli və effektiv qaz təminatı və qaz paylama infrastukturunun yeniləşdirilməsi istiqamətində Baş plana müvafiq mütəmadi tədbirlərin nəticəsi kimi qiymətləndirilir.

Azərbaycan qaz təchizatının sahəsində 2023-cü ildə yerinə yetirilmiş işlərin yuxarıda tərtib edilmiş diaqramda göstəricilərin təhlili göstərir ki, bu ildə yeni çəkilmiş qaz xətlərinin ümumi uzunluğu 590,75 km olmuş bu xəttin 6.12 km və yaxud 10.3% Şərqi-Zəngəzur 4788 km və yaxud 8.1% Qarabağ iqtisadi rayonların ərazilərində çəkilmiş, bu ərazilərdə müvafiq olaraq yəni Qarabağ iqtisadi rayonlarında 17,8 km qaz xətləri, əsaslı təmir edilmişdir. Bu isə ümumi təmir işlərinin 5.6% təşkil edir. Bu il ərzində Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında müvafiq olaraq 19% və 33% qaz sayğacları quraşdırılmışdır. Yuxarıdakı cədvəldə 1 yanvar 2024-cü il tarixində yeni çəkilmiş xətlərin və əsaslı təmir olunmuş xətlərin vəziyyətinin təhlili göstərir ki ölkə üzrə müvafiq olaraq 4701.77 km və 218.08 km qaz xəttləri çəkilmiş və yaxud təmir edilmişdir. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında 61.12 km və 192.94 km təşkil etmişdir. Azərbaycanın iqtisadi regionlarında qaz təchizatı sahəsində yeni xətlərin çəklişi, əsaslı təmiri və qaz sayğaclarının quraşdırılması ilə əlaqədar işlər təhlil edilmiş və aşağıdakı diaqram tərtib edilmişdir.




| | Bakı | Abşeron-Xızı | Gəncə-Daşkəsən | Şəki-Zaqatala | Lənkəran | Quba-Xaçmaz | Şirvan-Salyan | Mərkəzi Aran | Tovuz-Qazax | Mil-Muğam | Şərqi-Zəngəzur | Qarabağ | Dağlıq-Şirvan |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Yeni xəttlər | 14.3 | 5.3 | 7.7 | 2.5 | 8.4 | 13.2 | 6.7 | 13.3 | 11.4 | 4.4 | 1.3 | 4.1 | 7.4 |
| Əsaslı təmir | 19.3 | 7.9 | 10.4 | 4.3 | 8.3 | 7.3 | 4.3 | 13.6 | 9.6 | 3.8 | | 4 | 7.3 |
| Qaz sayğacları | 35 | 11.9 | 6.8 | 5.4 | 6.4 | 5.9 | 4.8 | 7 | 6.3 | 3.3 | 0.01 | 4 | 3.2 |

**Diaqram 1. Ölkənin regionları üzrə qaz təsərrüfatında yerinə yetirilən işlər (ümumidən %).**

***Mənbə:*** *Müəllif tərəfindən tərtib edilmişdir.*

Yuxarıda qeyd olunan dövrdə yeni qaz xətlərinin çəkilməsi və əsaslı təmiri Milli iqtisadiyyat və iqtisadiyyatın əsas istiqamətləri üzrə Strateji Yol Xəritəsinin regionların sosial-iqtisadi inkişafı üzrə 2004-2023-cü illəri əhatə edən dörd dövlət proqramlarında prioritet istiqüamətləri kimi nəzərdə tutulmuş və bu tədbirlərin icra müddətinə müvafiq həyata keçirilməsi təmin edilməlidir.

2023-cü ildə yeni çəkilmiş 590.75 km qaz kəmərinin çəkilişinin ən yüksək göstəricisi Lənkəran 89.04 km və Qazax-Tovuz 12.3 km və yaxud müvafiq olaraq ümumi xəttin müvafiq olaraq 15% və 12.3% bərabər olmuşdur. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında qaz xəttinin çəkilişi 8.1 km və 10.3 km olmuşdur.

Strateji Yol Xəritəsində SOCAR-ın "Azeriqaz" İB tərəfindən həyata keçiriləcək işlər "Mövcud şəbəkələrin hərtərəfli qiymətləndirilməsi və inkişaf planın hazırlanması" tədbirində prioritet hədəf kimi nəzərdə tutulmuşdur. Aparılan təhlil göstərir ki, "Azəriqaz" İB-nin "Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi,su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi"-ində qaz təchizatı ,qazpaylama infrastrukturları və qaz itkisi üzrə nəzərdə tutulan tədbirlər həyata keçirilir və hal-hazırda bu istiqamətdə işlər davam etdirilir

[7], [10]. Eyni zamanda perspektivdə, SYX-nə müvafiq qazpaylama infrastrukturu olmayan ərazilərdə qazpaylama şəbəkəsinin yaradılması və modernləşdirilməsi üçün baş plan hazırlanmış və yeni qazpaylama layihələri həyata keçirilməsi davam edir.

Eyni zamanda ölkənin qaz xətləri çəkilməsində və qaz nəqlində təbii qazın keyfiyyət göstəricilərinin Beynəlxalq standartların tələblərinə müvafiq tam uyğunlaşdırılması, qazpaylacı sistemin texniki vəziyyətinə mənfi təsirlərin azaldılması və şəbəkəyə ötürülən təbii qazın tənzimlənməsi istiqamətində də müvafiq tədbirlərin hazırlanması vacib amillərdən olub, bunların həyata keçirilməsi istehlakçıların məmnuniyyətinin artırılmasında mühüm əhəmiyyətə malikdir.

Bunlar ilə yanaşı tədqiq olunan sahə üzrə Strateji Yol Xəritəsinin əsas hədəf və istiqamətləri kimi aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur: Qazpaylama xəttlərinin tikintisi üçün tenderlərin elan edilməsi; tikinti fəaliyyəti ilə bağlı əsas icra göstəricilərinin (ƏİG) müəyyənləşdirilməsi;yığım səviyyəsinin maksimuma çatdırılması və təbii qazdan qanunsuz istifadəyə qarşı cərimələrin tətbiqinin nəzərdən keçirilməsi; texniki iqtisadi cəhətdən qazlaşdırılması səmərəli olmayan ucqar yaşayış məntəqələrin alternativ mənbələrlə təminatının həyata keçirilməsi aid edilir.

Bu tədbirlərin həyata keçirilməsindən gözlənilən nəticə və nəticə indikatorların tərkib hissəsi kimi ölkədə təbii qazın paylaşmasında baş verən itkilərin azaldılması,təbii qaz təchizatı sisteminin Beynəlxalq standartların tələblərinə uyğun olaraq modernləşdirərək təkmilləşdirilməsi; istehlakçıların təbii qaza dinamik artan tələbatının etibarlı şəkildə təmin edilməsi , təbii qaz isttehlakının proqnozlaşdırılmasının asanlaşdırılması və şəbəkədə ehtimal olunan itkinin qısa zamanda aşkarlanması; təbii qaz təchizatı sahəsində mövcud olan ciddi texniki problemlərin aradan qaldırılması və istehlaka səmərəliliyin artım hesabına qənaət edilmiş təbii qazın TAP/TANAP layihəsi vasitəsi ilə Avropaya ixracı nəzərdə tutulur [2]

Eyni zamanda təhlil göstərirki 2004-2023-cü illərdə magistral, daşıyıcı və paylayıcı qaz kəmərləri, dövlət sifarişləri ilə müxtəlif təyinatlı obyektlərə və fərdi evlərə çəkilmiş qaz kəmərləri tikintisində davam edən qaz kəmərləri daxil olmaqla 2004-2023-cü illərdə 70.74 min yeni qaz kəmərləri çəkilib və bərpa olunub.

Ölkənin iqtisadi regionlarının bütün ərazilərində 2004-2023-cü illəri əhatə edən Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi hesabatının təhlili göstərir ki, ölkədə qazlaşma səviyyəsi 2004-cü ildə 51.1%, o cümlədən regionlarda 41% olduğu halda bu göstərici 2023-cü ildə müvafiq olaraq 96.6% və regionlarda 94.42% olmuşdur[8] [10].

Strateji Planda qeyd olunduğu kimi bu tədbirlərin yerinə yetirilməsində bir sırs risklərin ,o cümlədən tikinti-quraşdırma işləri üçün tələb olunacaq investisiyalar üzrə maliyyə problemləri , tədbirlərin icrası zamanı yarana biləcək çətinliklər və istehlakda səmərəliliyin artırlması hesabına qənaət edilmiş təbii qazın ixrac qiymətinin dəyişməsi ehtimal olunur.

## NƏTİCƏ

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Strateji Yol Xəritəsi çərçivəsində 2025-ci il və ondan sonrakı dövrdə və regionların sosial iqtisadi inkişafı üzrə 2009-2023-cü illəri əhatə edən dördüncü dövlət proqramı və Böyük Qaydış I Dövlət Proqramı çərçivəsində Bakı şəhərində qaz təchizatında itkilərin azaldılaraq Avropanın qaz paylamadakı müqayisəli itki səviyyələrinə çatdırılması istiqamətin səmərəli tədbirlər həyata keçirilmiş və bunun nəticəsində Azərbaycanda qazlaşmanın səviyyəsi 2004-cü ildə 51%-dən, o cümlədən regionlarda 41 %-dən 2023-cü ildə 96,6% , regionlarda isə 94,4% çatdırılmış, yəni bu sahədə ölkə üzrə 45,5% , regionlar üzrə isə 53,4% artım təmin olunmuşdur. Qarabağ və Şərqi Zəngəzur iqtisadi regionlarında müvafiq olaraq 192,94 km. və 61,12 km.yeni qaz xətləri çəkilmişdir. Ölkənin iqtisadi rayonlarında qaz təsərrüfatı sahəsində tədqiqatın aparıldığı dövür üzrə yeni xətlərin çəklişi, əsaslı təmiri və sayğaclaşmanın vəziyyətini əks etdirən diaqram tərtib edilmişdir.Qarabağ iqtisadi regionun ərazisində 2023-cü ilə qədər 47,88 km və 01.01.2024 cü il tarixinə 192,94 km və Şərqi Zəngəzur iqtisadi rayonunda bu illərdə müvafiq olaraq 61,12 km və 6,12km.yeni xətlər çəkilmişdir.[10] Qeyd etmək lazımdır ki, qazın paylanması zamanı baş verən itkiləri aşkar edilərək ,tənzimlənmənin aparılması üçün əlavə mövcud qaz-paylama sistemində bütün istifadəçilərin sayğaclarından istifadə edilməsi

istiqamətində səmərəli fəaliyyətin həyata keçirilməsi təmin edilr, beləki aparılan təhlil göstərir ki, qaz təsərrüfatı üzrə mükəmməl Dövlət proqramları və Strateji Yol Xəritəsində nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini səmərəli təşkil etmək üçün məlumat bazasının hazırlanması və daimi təkmilləşdirilməsi nəticədə şəbəkəyə səmərəli nəzarət etməyi, sərf edilən qaz ilə əlaqədar yığım səviyyələrinin artırılmasına nail olmağa imkan verəcəkdir.

### *İstufadə edilmiş ədəbiyyat:*


**1.** M.Məmmədov. (2008). “Keçid iqtisadiyyatında proqram-məqsədli idarəetmə” monoqrafiya, Bakı, ”Kooperasiya nəşiriyyatı”.

**2.** N.Əliyev, M.Məmmədov. (2013). “Yanacaq enerji kompleksinin inkişafı və idarəedilməsində iqtisadi proqramlaşdırma amili” Bakı, “Kooperasiya nəşiriyyatı”.

**3.** N.Əliyev, M.Məmmədov. (2008). “Azərbaycanın yanacaq- enerji kompleksi – inkişaf mərhələləri və perspektivləri, Bakı,

**4.** M.Məmmədov, Ə.Əliyev, A.Abasova. (2012). “Sənaye və Yanacaq-Enerji kompleksinin inkişaf istiqamətlərinin təhlili , Bakı. “Elm” nəşiriyyatı.

**5.** Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qaydışa dair I Dövlət Proqramı, Bakı, 2022.

**6.** “Azərbaycan Respublikasının regionlarının sosial –iqtisadi inkişafı üzrə 2004-2023-cü illər üzrə dövlət proqram”larının hesabatları Bakı 2023.

**7.** “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi”, Bakı, 2016 –il.

**8.** SOCAR 2023-cü illik hesabat, Bakı, 2024.

**9.** “Azərbaycan Respublikası kommunal xidmətlər–qaz təsərrüfatı“. Azəriqaz İB, hesabat, Bakı, 2020.

**10.** “Azəriqaz” İB 01.01.-ci ilə qədər qaz xətlərinin çəklişi üzrə hesabatı Bakı 2024.

**11.** Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi “Böyük Qaydış Dövlət Proqramı” ereforms.gov.az

**12.** Mammadov, M.A., Yadigarov, T.A., Mammadova, F.A., Alizada Sh.I., Safarova, G.N., Aliyev, A.M. (2024.) AN ECONOMIC AND MATHEMATICAL MODELING FOR RISK ASSESSMENT OF INNOVATIVE ACTIVITIES AN ENTERPRISE IN OIL AND GAS INDUSTRY. SOCAR Proceedings, (4), pp. 139–146.

**13.** Mammadova, F., Mammadov, M., Kariuk, A., Mammadov, E. (2022) Economic Reforms and Development Strategies as Providing Sustainable Development. Lecture Notes in Civil Engineering, 181, pp. 669–676

**14.** Komelina, O., Shcherbinina, S., Mammadov, M. (2022) Assessment of the Regional Energy Efficiency Potential of the Housing Sector of Ukraine. Lecture Notes in Civil Engineering, 181, pp. 661–668

**15.** Mammadova, F., Fatahova, N., Mammadov, S., Gasimov, R., Aliyev, S. (2024). Governmental management of social housing as an element of state social policy: Bibliometric analysis Problems and Perspectives in Management, 22(2), pp. 502–517

**16.** Ganiyev, K., Alizada, S., Asgarov, A., Gasimli, M., Gasimzade, N. (2024). SAFETY MANAGEMENT IN THE CONSTRUCTION INDUSTRY: BIBLIOMETRIC ANALYSIS. Problems and Perspectives in Management, 2024, 22(3), pp. 198–213.

**17.** Məmmədova F., Fətahova N., Məmmədov Ş., Gasımov R., Əliyev Ş. Governmental management of social housing as an element of state social policy: Bibliometric analysis. Problems and Perspectives in Management, Volume 22, Issue 2 (https://www.researchgate.net/publication/381178374_Governmental_management_of_social_housing_as_an_element_of_state_social_policy_Bibliometric_analysis)

**18.** Tagiyev, M.F., Veliyeva, S.R., Asgarov, I.N., Mammadova, F.A., Akhundova, Kh.R. (2024). HYDROCARBON COMPOSITION AND PROPERTIES OF OILS OF THE

APSHERON PENINSULA AND THEIR CONNECTION WITH GEOLOGICAL MODE OF OCCURRENCE. SOCAR Proceedings, (2), pp. 13–19.

**19.** Kariuk, A., Pashynskyi, V., Pashynskyi, M., Mammadova, F. (2022). Methods of Probabilistic Assessment of Building Enclosing Structures Thermal Reliability. Lecture Notes in Civil Engineering, 181, pp. 179–189.

**20.** Shirinov, B., Mahas, N.Forecasting Sales Volume in Construction Companies. Lecture Notes in Civil Engineering, 2023, 299, pp. 825–830

**21.** Boldyrieva, L., Alizada, S., Gryshko, V., Hunchenko, M. (2022). Construction Management Based on European Experience of Using Smart-City Technology. Lecture Notes in Civil Engineering, 181, pp. 607–614.

**22.** Abdullayev, K., Hasanov, P., Aliyeva, A., Aliyeva, N., Mustafayev, A. (2024). The non-oil sector of the Republic of Azerbaijan's economy: Prospects and directions for development within the framework of contemporary economic policy. Economics of Development, 23(4), pp. 82–94.

**M.A.Mammadov**
*doctor of Economic Sciences, professor,*
*Azerbaijan University of Architecture and Construction*
*ORCID 0000-0002-5327-2507*
**Z.A.Gurbanov**
*SOCAR, Vice-President*

## Analysis of gas economy infrastructure in the economic regıons of Azerbaijan and development directions

**Abstract**

*The formation, reconstruction, construction and repair of gas supply infrastructure in the liberated territories of the Karabakh and East Zangezur regions of Azerbaijan, as well as the stages of development of the gas economy, the status of installation of gas meters were studied. At the same time, the measures in the field of the national economy and the main sectors of the economy, including the priorities envisaged in the Strategic Road Map of utilities - electricity and gas economy, and in the state programs for the socio-economic development of regions, and the I State Program on the Great Return were examined in detail. That is, the implementation status of the measures taken by the "Azerigas" PU towards the reconstruction and modernization of the energy supply infrastructure, the implementation of new gas distribution projects, the reduction of gas losses, and the provision of gas to gas meters and consumers was analyzed and the results were evaluated.[5][7]*

***Keywords:*** *economic regions, infrastructure, gas, consumers, non-oil sector, strategic target.*